# XƏTADI QEYRİ-EŞQ...



Barat VÜSAL

## I yazı

*Günəşi sağ tərəfimə, Ayı sol tərəfimə qoysanız, yolumdan dönməyəcəyəm, Allaha xidmət eyləyəcəyəm.*

**Məhəmməd peyğəmbər.**

*Allah və Rəsulu! Başqa hər şey heç və batil!*

**H.F.Qısakürək.**

*Bir Saqidən içdim şərab,*
*Ərşdən uca meyxanəsi,*
*O Saqinin məstləriyiz,*
*canlar onun peymanəsi!*

**Yunis İmrə.**

*Oğlan qıza qovuşmayınca Eşq olur.*

**Aşıq Veysəl.**

...Ağlı olanın Eşqi yoxdur,
Eşqi olanın ağlı!

... İlahi Eşqin qüdrətini duyandan daha heç kim haqda yox, ancaq və ancaq Allah haqda danışmaq istəyirəm.

...Hər şey köhnəlir.

İlahi Eşqdən, Eşq sözündən başqa!

Yunus İmrəyə görə Eşqin dənizinə 300 dənizdən keçib vararlar. "Eşq əri bu soydan deyil."

Adi Eşq ömürlə, İlahi Eşq könüllə bağlıdır. Nəzmlə 26 min beytlik "Məsnəvi"sini yazan Mövlana Cəlaləddin Rumi sonda özünü şair saymırdı. Bunu aşiqliyə (İlahi Eşqə) gedən yolda bir vasitə sayırdı, deyirdi:" Mən daha Haqq aşiqiyəm!"

Dinimiz rahibliyi nəhy etmişdir.

Kim hesab edir ki, İlahi Eşq yolçusu ev-eşik, ailə yiyəsi olmasın gərək. Yanılır. Mövlananın da gözəl ailəsi vardı.

İlahi Eşqə (aşiqliyə) gedən yol gözələ, gözəlliyə vurğunluqdan keçir. Amerika yazıçısı L.Darreldən soruşublar.

-Necə ölmək istəyərdiniz?

-Eşqdən ölmək istəyərdim, deyib.

Mənsə bu fikirdəyəm ki:

*Mən könüllər dəlisiyəm,*
*Duy könülü ey ağlı kəm!*
*Açdı mənim də gözümü,*
*Eşqin gözü bağlı ikən!*

"Yepyeni bir dünya kəşf edər kimi eşqi kəşf etmişdim" deyirdi Nazim Hikmət.

Gəncliyində Səməd Vurğun Dürrə adlı bir qıza vurulmuşdu. Onu başa düşənlərlə yanaşı başa düşməyənlər də vardı. Hətta onu danlayardan və qınayanlardan biri öz doğma qardaşı Mehdixan olmuşdur.

"Səmədi Qazaxdan didərgin saldılar. Bir dəfə Bakıda ona rast gəldim, çox fikirli idi. Saçları dağılmışdı, pencəyi şalvarına uyğun gəlmirdi, şalvarı da pencəyinə. Ayaqqabıları da taykeş idi. Üzünü qırxmamışdı. Elə hey papiros sümürürdü. Mehdixan onu çox danladı:

-Sənin böyük gələcəyin var. Adam da bir qızdan ötrü özünü bu kökə salarmı?

-Ay Qara, yaralı yerimə toxunma! Dürrə məndən ötrü bir qız deyil, o, mənim eşqimdir.

-Eşq nədi, ə?

-Bilmirsənmi, a Qara, bir eşq var, bir arvad, bir aşna...

-Nə demək istəyirsən?

-Şalyapini tanıyırsanmı, Məşhur rus oxuyanı?

-...Onun bura nə dəxli var?

-Var, a Qara, bax, o Şalyapinin arvadı da vardı, uşaqları da. Aşnalarının sayı-hesabı da yoxdu. Amma o, bir knyaginyanı sevirdi. Elə ki, onu teatrın lojasında görürdü, o gecə qan eyləyirdi, operanı dağıdırdı. Amma görməyəndə elə bil, səsi batırdı. Tənəffüsdə knyaginyanın yanına qaçır, əlindən öpürdü. Qayıdanda eşqlə elə oxuyurdu ki, hamının ağzı açıla qalırdı.

Ruslar buna "lyubov" deyirlər, a Qara.

Gərək hər adamın bir "eşqi" olsun.

-Ə, sən lap Hacı Əfəndinin müridləri kimi danışırsan?

-Nə onlar, onların da eşqi var!"

Xalq yazıçısı İsmayıl Şıxlının xalq şairi Səməd Vurğun haqqında yazdığı "Nə böyük dərd imiş şair yaranmaq" adlı xatirəsindən götürülmüş bu misalda iki birbirinə zidd olan eşqdən söhbət açılmışdır.

Birincidə söhbət sadəcə "lyubov" danadi eşqdən, ikincidə isə İlahi eşqdən gedir...Belə ki, vaxtilə nəqşibəndi təriqətini yayan, Qazaxda "Göy türfə" də oturan Hacı Mahmud Əfəndi və onun müridləri doğurdan da ilahi eşqi təbliğ edirdilər, o eşqə dair ilahilər oxuyurdular.

Əlbəttə, gözələ, gözəlliyə vurulmaq, eşqlə yanaşmaq vacibdir. Lakin bu, ilahi eşqə çevirilməsə yarımçıq qalır.

Şəhriyara görə, şeir də eşqlə yazılmalıdır. "Heyiflər olsun ki, sənaye və maşın əsrində eşq yoxdur ki, şeir də olsun."

Övliya Əbülhəsən Hərkani bu məqama işarə edərək deyirdi: "Allahdan danışarkən başqa şeydən söhbət edənlərlə yoldaşlıq etməyin".

Süleyman Peyğəmbər bir dəfə çətin sınaq qarşısında davam gətirə bilməyib böyük xətaya yol vermişdi. Allah onun imanının dürüstlüyünü yoxlamaq istəmişdi. Gözlərinə gözəl atlar görünmüşdü. Bu vaxt o, namazını unutmuşdu...

...Evdə ömür-gün yoldaşımla oturmuşdum. Qaranlıq çoxdan düşmüşdü, təxminən saat on radələri idi.

Dedim: - Gəlsənə sənə bir sual verim?

Dedi: - Nə sualdı, elə?

Dedim: - Bax, tutaq ki, qapımız birdən açılsın və ölmüş əzizlərimizdən biri əvvəlki görkəmdə, əvvəlki pal-paltarda içəri girsin, nağayrardıq?

Dedi: - Sən də danışmağa söz tapmadınmı? Özün bilirsən ki, xəstəyəm. Gecə yenə yata bilməyəcəm, qorxudan. Mən nə bilim nə edərdik?

Dedim: - Qorxma! İndi qulaq as, izah edim ki, nə edərdik?

1-ci variant budur ki, ikimiz də qorxardıq. (Nə olsun ki, mən kişiyəm).

2-ci variant belədir ki, ikimiz də stolun üstündə nə qab-qacaq, stəkan-zad varsa da götürüb gələnin, guya xortlayanın təpəsinə çırpardıq.

3-cü varianta görə isə qapı dura-dura, aynadan düşüb qaçmağa çalışardıq, elədimi?

-Elədir!

-Amma Allah 4-cü variantın olmasını istəyirdi.

Yaradan bizim imanımızın dürüst ya qeyri-dürüst olduğunu yoxlamaq istəyirmiş. İmanımız dürüst olsaydı gərək dərhal ayağa qalxaydıq, əlimizi açıb dua edəydik, deyəydik:

-Şükürlər olsun, Allahım, sənin qüdrətinə, kəramət və mərhəmətinə, rəhminə! Sən deyirdin ki, mən öldürdüyümü diriltdib qaytara bilirəm... Budur, indi bizim bir əzizimizi qaytarmısan.

Lakin biz belə hərəkət etməyə hazır deyilik. Təəssüflər olsun ki, imanımız dürüst deyilmiş, yarımçıqmış. Bizdə ilahi eşqdən əsər-əlamət yoxmuş.

* * *

...Anakreon məst halda yanındakı Fedrə:

- Dostum, - dedi, yaradılışdan əzəli qüvvə eşqdir. Eros (eşq allahı) allahların ən qədimi, ən gənc və ən parlağıdır.

Fedr gülümsədi:

- Bu, doğru, - dedi, lakin eşq nədir? Eşq ruhun zəruri və təbii xəstəliyi deyilmi?

Dostum onun sözünü kəsdi:

-Yox, Fedr, eşqə xəstəlik demək olmaz. Çünki eşq ölməz, daimi, canlı bir qüvvədir.

* * *

Veysəl Qərani deyərmiş:

-Evlənmədim.

Mən uca Allahın rizasını özümə sevgili seçdim.

Mövlana belə bir əhvalat danışmışdı: "Biri xəlvətdə dua edən dərvişin otağına girib soruşur ki, nə üçün yalnız oturmusan? Dərviş cavab verir ki, əslində indi yalnız qaldım çünki sən gəlib tanrıdan ayırdın.

* * *

Allahdan başqa hər şeyi unudanlar, unudulmaz olurlar. Belə ki, "Eşqi-həqiqət anlayan can ilə başa qalmadı" (Nəsimi).

...Qəlbi ilahi eşqilə aşıb-daşan bir övliya namaz qılırmış. Bu vaxt Xızır peyğəmbər onlara gəlir. Qapıya çıxan uşağa deyir ki, baban evdədirsə, de ki, qonağı var.

Uşaq gəlir ki, babası namaz qılır, heç nə deməyib, durub gözləyir ki, kişi namazını qurtarsın.

Namaz bitdikdə uşaq Xızırın ismarıcını ona deyir. Övliya çıxanda görür ki, Xızır yoxdu, çıxıb gedib. Nəvəsinin pərişan əhvalını gördükdə "Eybi yoxdur, deyir, Xızır yenə gələ bilər, amma məni namazımdan ayırsaydın o anda yetdiyim vusxata bir də yetə bilməzdim, o an bir də qayıdıb gəlməzdi"

Bu misaldan da görünür ki, ilahi eşq təkcə Məcnun adlanmaqla bağlı deyil.

Bu haqda daha bir misal da var:

Yenə bir kişi namaz qılırmış. Fikri-zikri Allahın yanında olduğu bu vaxtda arvadı içəri girib vay-şivən qoparır ki, - a kişi, evimiz yıxılıb, 21 yaşındakı dağ cüssəli oğlumuz çayda boğulub, ölüb.

Kişi heç nə eşitmir kimi namazını bitirib faciədən halı olduqda belə deyir:-İndi nə demək istəyirsən? Oğlumuzdan olmuşuq-olmuşuq, məni Allahımdan da etmək istəyirdin?!

Bir dəfə adamlar İbrahim Ədhəmdən nə ilə məşğul olduğunu soruşurlar. İbrahim deyir:

-Mən bu dünyanın bütün işlərini insanlara saxlamışam. Özüm isə tək bir Allahı düşünürəm.

...Nizaminin "Leyli və Məcnun" əsərindəki bir epizod da ilahi eşqin mahiyyətini açmaq, anlamaq baxımından çox xarakterikdir:

Bir gün Leyli əri İbn Səlamdan xəlvət Məcnunla görüşmək arzusuna düşür. Bu vaxt Xızır sifət bir qocanın yoldan keçdiyini görüb, onu yanına çağırır, zəhmət haqqı olaraq ona pul verir, sonra sırğalarını çıxarıb verir ki, bunları da satarsan, Məcnunu taparsan, bir dəst təzə paltar alıb, geydirərsən, filan nişanəli yerdə saxlayarsan.

*...Gizlicə seyr edəm bəlkə Məcnunu,*
*Görüm nə sözü var, nə rəngi vardır.*
*Görüm ki, nə qədər o, vəfadardır,*
*Bəlkə də söz qoşub dediklərindən,*
*İki-üç beytinə qulaq asım mən.*
*bəlkə düyünümü aça nəfəsi,*
*bəlkə şəfa verə dərdimə səsi!*

Qoca gedir, Leyli dediyi kimi edir. Məcnunu o, dediyi yerə gətirir. Aşiq-məşuq bir-birinə sarı qaçır, 10 addım qalanda hər ikisi üz üstə huşsuz halda yerə yıxılır. Qocanın təəccüblə baxdığını görəndə Leyli qocaya deyir ki:

*...Ey nəcib insan,*
*Getməyə qalmadı taqətim, inan,*
*Mən ki, yandırmışam ürəyimdə şam,*
*Yenə yaxınlaşsam, tamam yanaram!*
*Mənim ərim vardır, yatsa da bu dəm,*
*Allahın gözündən uzaq deyiləm.*

## ESSELƏR

Bundan sonra Leylinin etdiyi istəyə baxın. Ürəyə baxın onda:

*Məni qızartmasın tutduğum işlər,*
*Kamal bir aşiqdir, ilqarı tamdır,*
*Bundan çox istəmək ona haramdır!*
*Qoy şeirlər desin o şirin dillim,*
*Şeirlə oxşasın məni sevgilim!*
*Bəs Məcnun nə haldadır bu vaxt?*

Qoca görür ki, heç o da yerindən bundan artıq tərpənənə oxşamır." Onda bir imtahan açmaq istədi, kənardan boylanmaq günahdır, dedi: Söylə, çağrılmamış gələrmi o yar? Gəlib qucağına girərmi nigar? Cananı görməmiş bu haldasan sən, Nə hala düşərsən özünü görsən?!"

Qocanın dediklərinin heç bir faydası olmur. Məcnuna, Leyliyə 10 addımlıq məsafədən baxmaq, huş olub yerə sərilmək bəs edir. 10 addım məsafə əslində, sərhədə dönsə də hər ikisi üçün həm də sipər olur. Adı, namusu, eşqi (ilahi eşqi!) qoruyan sipər!

Və Məcnun yenidən səhraya üz tutur... Heç yazıq Leyliyə şeir deməyə macal tapmadan, güc tapmadan! Olan-qopan taqətiylə tək bircə şeyə gücü çatır: qaçmağa! Qaçır özündən, Leylisindən, vəslindən. Qaçır hicrana doğru!

...Məcnunlar üçün Leyli-səhralardır.

Məşhur "Əsli və Kərəm" dastanında belə bir cümlə var: "Sofi Kərəmin aşiq olduğunu anladı." Kərəm də o aşiqlərdəndi ki, ondan ötrü də vüslət (vüsal dəmi) Allah eşqiydi, İlahi eşqiydi.

Möminlər və aşiqlər arasında fərq varmış.

Möminlər gün ərzində 5 vaxt namaz qıldığı halda aşiqlər daim namazdaymışlar?!

Əhməd Yəsəvi bunu yaxşı bildiyindən tövsiyə edirdi: "Zahid olma, abid olma, aşiq ol!"

Fransız yazıçısı Jan Labriyen tutulduğu xəstəlikdən çox məmnun olduğunu söyləyirdi: "Xəstəsimi məmnun edən yeganə xəstəlik eşqdir."

Digər məşhur yazıçı Jorji Sand da eşqin qüdrətini vaxtında anlamışdı: "Yalnız aşiq olandan sonra yaşamağı öyrəndim" demişdi.

Seyid Nigarinin fikirincə hər şey insanı məğlubiyyətə doğru aparır. "Qalib ancaq Eşqdir!"

İnsanı Eşq dəli etdiyi qədər heç nə dəli etmir. Və insanı Eşq ağıllandırdığı qədər də heç nə ağıllandırmır!?

Gözəldən də gözəl olan bir şey varmış: Eşq!

*Hər şeyin gözəli Eşqdi,*
*Ən ağıllı dəli Eşqdi!*

Merac səfərində Həbibullah müəyyən yerə qədər Cəbrayılla gəlmiş, amma haqqa uzanan bu Əzim Səfər sadəcə Eşq ilə tamamlanmışdı:

...Və bütün miniklər içərisində qulu ən irəliyə daşıya bilən Eşqdi!

İlahi eşq yolçusunun ruhundakı və son nəfəsdə dilindəki ən çox səslənən söz budur: "İnna İlahi və innə ileyhi raciun" (Allahdan gəlib Allaha gedirik).

Yunus İmrənin ustadı Tapdıq İmrə deyərmiş: "Dərvişlikdən murad kəndini (özünü) yox etməkdir, Tövhidi deyil"

"Abbas və Gülgəz" dastanında da İlahi eşqin buta kimi yuxuda Aşiqə - Abbasa necə verilməsindən bu cür söhbət açılır:

"Bir gün Abbas Saqi ilə bağa gəzməyə getmişdi. Bir qədər gəzəndən sonra uzanıb bir ağacın dibində yatdı. Axşam düşəndə Saqi nə qədər etdi, Abbas oyanmadı. Səs düşdü, hamı tökülüb gəldi. Nə qədər elədilər Abbası oyada bilmədilər. Onu elə yuxulu götürüb evə gətirdilər. Bütün qarılar yağıldılar, kimi dedi, huşunu itirib, kimi dedi ölüb. Bir qarı onun nəbzini tutub dedi:

-Heç nə olmayıb, o, eşq yuxusuna gedib. Bu saat Təbrizli Batman Qılınc Məhəmməd bəyin bacısı Pəri xanımı ona buta verdilər.

(Davamı 9-cu səhifədə)

*(Əvvəli 8-ci səhifədə)*

# XƏTADI QEYRİ-EŞQ...

...Bunu yuxudan qalxan kimi saz istəyən Abbas da təsdiq edib:

*Ağalar ağası, ağalar xası*
*Ana, mövlam mənə buta veribdi...*

Belə bir butanı yuxuda Qübaniyə də vermişdilər, ona da Badə (Eşq Camı) içirmişdilər.

* * *

Məstlik-eşqə düçar olmaqdır.

Sonralar bu cam məsələsini M.P.Vaqif də etiraf edəcəkdi, deyəcəkdi: "Cam içmişəm, mən məstanə gəlmişəm".

Aşiqlər könül sultanlarıdır. Tanrı hər iki dünyanı bir könüldən ötrü xəlq etməyibmi?!

Aşiqi Məşuqdan, Məşuqu Aşiqdən ayırmaq dünyada ən böyük günahdı. Qazı Bürhanəddin demişkən, "Aşiqin məşuqənin eşq iladir varlığı".

Belə aşiqlərdən biri də Kərəm idi. Hansı ki, ilahi eşqilə alışıb külə dönməyi mövladan özü istəmişdi. "Qadir mövlam mənə üç dərd verəydi, biri alış, biri tutuş, biri yan." Kərəm ilahi eşq yolçusu olduğunu bilirdi. Leyli - Məcnun bir qəbirdə dəfn olunduğu kimi, Əsli və Kərəmin də külü yığılıb bir yerdə dəfn olunmuşdu.

* * *

İlahi eşq ilahi hökm kimi bir şeydir. Hər nə varsa, bir kasa ilahi şəraba dəyməz, deyirlər.

*...Əzəldə hər nə yazmış isə bolur...*
*...Gün batardan gün doğan yerədəğin,*
*Eşq ərinin bir nəfəs seyranıdır.*
*...Könüldə gizli olsa bir tasadür,*
*Ömür ilə əcəl dəli bir kasədür.*
*Dünya bəzmində iki aləm dəxi,*
*Eşq əri qatında həm bir kasədür.*

(Qazi Bürhanəddin)

"Leyli və Məcnun" əsərində Füzulinin təsvir etdiyi Dəvə də sən demə, aşiqmiş. Leyli onun aşiqliyini niyaz edir:

*...Üşşaq təriqidir təriqin,*
*Gər aşiq isə, mənəm rəfiqin.*
*Nalan, ğəmi-eşqi- yardansan,*
*Sən dəxi bizim qatardansan!*

Aşiqin eşqi əsl eşq olduğu kimi ahı da ahmış! Füzuliyə görə İbn Səlamı Məcnunun ahı öldürüb. Ona görə də hər eşqə düşən aşiq ola bilmir!

*...Layiq olmaz hər adam gəzdirə eşqin daşını,*
*Qeyri aşiqlərə göstərməz üzün çün o pəri.*

(Saib Təbrizi)

etmək nəticəsində insan Allahın xəlifəsi adını qazana bilər.

Yunis İmrə ən böyük müdərris Tanrının özünü sayır. "Tanrı özü müdərris, Eşq onun dünyasıdır" deyir.

Demək, Tanrı müdərrisdir-keçdiyi dərsin adı Eşqdir. Və Yunis İmrə istəyib ki, Peyğəmbər salavatı eşqlə dəyişdirilsin.

...Məcnun bir gün Dəvəyə minib Leylinin yanına getmək istəyirmiş. Dəvə təzə doğubmuş. Canı balasının yanında qaldığından iki dəfə Məcnunu mənzilə çatdırmadan yarı yoldan geri qayıdır. Məcnun işi başa düşür, Dəvəyə deyir:

-Ayrılmamız gərək! Bizim yoldaşlığımız tutmaz .Məni bəla, səni bala çəkir!

...Xəqani deyirdi ki, ətək altında büt gəzdirir çoxu və Allah dərgahına üz tutub guya... Yəni Allah dərgahına getmək istəyir. Xəqani "qəlbindən həvaya belə yol vermə" deməklə demək istəyirdi ki, aşiqlər üçün bu,küfr hesab edilir.

Qəlbində İlahi Eşqdən başqa şey gəzdirmək, əlbətdə ki, küfrdür!

* * *

Hafiz deyirmiş ki, azad olmaq üçün Eşqə qul olmalısan: "Eşqə qul olmaq edibdi məni daim azad." Hafiz onu da deyir ki,"Qəlb o yerdə şən olur ki, ola dildar (Allah) orda!"

* * *

Hamı ölüb gedəcək. "Yaşayan Eşq olacaq!" (Şəhriyar)

* * *

Bu yazını oxuyanların hamısı təbii ki, eyni cür qarşılamayacaqlar.

*Əqllə yanaşanlar da olacaq.* (qal əhli)
*Könüllə duyanlar, oxuyanlar da.* (hal əhli)

Olsun! Nə demək olar?!

*Aqil olub əql məni danladı,*
*Aşiq olub mən də onu danladım!*

(Şəhriyar)

* * *

"Yüksək hüzuruna yetmədim bu gün, üzrüm var,günahım burasındadır"-deyən Nizami Allah Eşqini vəsf etməkdən yorulmurdu, yazırdı: "Sən bir Allah ilə ol,

Eşq (imtahan) davam edir.

*Eşqdir bu dərdin dərmanı,*
*eşq yolunda verəm canı,*
*Yunus İmrə deyir bunu,*
*bir dəm eşqsiz olmayalım...*

...Marağalı Əhvədi deyirdi ki, elə bir söz deyə bilrsənmi ki, əvvəli inkar, sonu təsdiq olsun? Kiməsə elə gəlir ki, heç o cür sözmü olar? Olar!

Var belə bir söz:

***"La İlahə!" (Yoxdur Allah!)***
***"İlləllah!" (Allahdan başqa!)***

## II YAZI

### *Lüğət kitabımda tək isim: Allah!*

N.F.Qısakürək.

*Virdimdir Allah, Seyid Nigari,*
*Seyid Nigari, virdimdir Allah!*

Ey Füzuli, nə əmək qılsan, xətadır qeyri-eşq!

Ya Hu!-yalnız O! (Allah!)

İlk Tanrı sevgisi daha çox miflərdə, əsatirlərdə və nağıllardadı: "Biri var idi, biri yox idi, Allahdan başqa heç kəs yox idi."

B. e-dan əvvəl VI-V əsrlərdə yaranmış daosizm fəlsəfəsinə görə "Allahını bulmayan, Ona sığınmayan insan hələ də yolunu tapmış birisi, yəni yolçu sayılmır."

...Nəmrud İbrahim peyğəmbəri oda atıb yandırmaq istəyəndə Cəbrayıl gəlib soruşdu:

-Bir şeyə ehtiyacın varmı?

İbrahim dedi:

-Var, amma sənə yox!

Cəbrayıl dedi:

-Onda mədəd istə Ondan ki, Ona möhtacsan!

Və İbrahim o dar məqamda Allahdan başqa heç kimdən nicat ummadı.

Məhəmməd peyğəmbər deyirdi ki,üç cür ibadət var:

1) İnsan arzusuyla bağlı.

şeytanın vəsvəsə yaradaraq Zərdüşə dediyi sözdür.Onu yolundan etmək, azdırmaq üçün.

O sözü Nitsşe demiş olsaydı, bəs həmin əsərində o, "İndi yalnız Allahı sevirəm. İnsanları sevmirəm " sözlərini necə deyə bilərdi?

Allahı sevənlərin və Allahın sevdiklərinin ilahi eşqlə bağlı fikirlərini nəzərdən keçirdikcə Cəlaləddin Ruminin dahiyanə sədası eşidilir:

"Eşqi seç-seçilərsən.

Bütün eşqlər ilahi eşqə körpüdür.

Mən o eşqi qısaca söylədim, tamamilə çatdırmadım.Əgər anlatsam, həm dodaqlar yanar, həm də dil."

Sinan Yağmurun Veysəl Qərani haqda yazdığı "Eşqə səfər" romanında oxuyuruq:

"Səhradan qayıdırdım.

-Hardan gəlirsən? - deyə bir qonşum soruşdu.

-Səhraya getmişdim.Eşq yağmış, yerlər islanmışdı. İnsanın ayağı necə palçığa batarsa, mənim də ayağım eşqə elə batırdı...

-Nə eşqdi? Yoxsa bir qıza vurulmusan? - deyə soruşdu.

-Allah eşqi!-dedim. O var, başqa bir şey yalandır!"

Nəsimiyə "Eşq şəhidi", "Eşq Günəşi" deyənlər yanılmayıblar."Qismət paylananda mənim payıma eşq düşdü" deyən dahi sənətkar təsadüfi olmayaraq yazırdı ki:

Eynü (E), Şinü (Ş) Kafə (K) düşdü könlümüz,
Sanki Kuhi-Qafə düşdü könlümüz.
...Mənzilə çatmaq dilərsən,
Eşqi yoldaş eyləgil.
... Əzəldə eşqin ilə əhd eyləmişəm.
...Yazayım zərrəcə eşqin sirrini.

Nəsimi peyğəmbərimizin və peyğəmbərlərin eşq yolçusu olduğunu deməklə işini bitmiş hesab etmirdi. Bəşər övladlarını bu yola dəvət edir, bu yoldan başqa yol görmürdü:

*...Eşq ilə gəldi cəmiyi-ənbiya.*
*...Mənzili-Mahmud imiş ali məqam,*
*Ol məqamı istə haqdan, vəssalam.*

İlahi eşq Yunus kimi dərvişlərə göstərir öz cəmalını. Yunus İmrə Allahdan ilahi Eşq istəmişdi, o da vermişdi:

*İlahi, bir eşq ver, mənə,*
*Hardayamsa heç bilməyim.*
*Elə itirim özümü,*
*İstəsəm də qoy bulmayım.*

*...Alginən məndən mənliyi,*
*Könlümə doldur sənliyi.*
*Diriliyimlə öldür məni,*
*Heç bir zaman da ölməyim.*

Yunus İmrə ömrü boyu eşq yolçusu olub. Amma yenə belə deyib: "Eşq bizə yenicə gəldi"

*Kimdə bir zərrə eşq varsa,*
*Bil ki, tanrı da ondadır.*

Söhbət İlahi Eşqin bir zərrəsindən ( bir udumundan!) gedir.

Bir xalq bayatısında bir damla , bir zərrə eşq belə qiymətləndirilib:

*Yar yarın babı gərək,*
*Geyməyə abı gərək.*
*Zərrəcə eşqi olanın*
*Dəryaca tabı gərək!*

İnsanlar eşqdən bu qədər danışa-danışa, halı ola-ola, sən demə, hələ də Yunis İmrə demişkən "bu eşq sirrini kim bildi, biləsidi?!"

Yunis İmrəyə görə Allahını sevən hər mənaya vaqif olur. Necə ki, Quranda bildirilir:

"Allah öz sirrini onu sevənlərə açır."

Gəlin bir daha Yunisi dinləyək:

*Bildim gələnlər keçmiş,*
*Qonanlar geri köçmüş.*
*Eşq şərabından içmiş,*
*Kim mənə duyar isə!*

Yunis İmrə başqa bir şeirində deyir ki, "Ərşdən yuxarıdadı Eşq bürcünün qülləsi."

...Keşmişdə mürşidlər yetirdikləri müridlərə axırda xəlifəlik xirqəsi (xalat) verərmişlər. Eşq elə bir xəlifəlik xirqəsidir ki, onu hər yetənə vermək olmaz. Yalnız İlahi Eşqin sayəsində, İlahi Eşqə müridlik

aləmi sel alsa belə. Bir tükün də elə zənn etmə ki, rütubətdə olar."

Qazi Bürhanəddinin "Canımı eşqinə satdım." amalını Kişvəri belə tamamlayırdı: "Ey könül, hər kimsəyə yar olmagil, yar özgədir."

İnsanı kamala Eşq yetirir.

İnsanın gözünü Allah açır. (Allah eşqi). Onda insan çox şeydən xəbərdar olur. (xəbərdar edilir)

Kainatın yaradılışından məqsəd İnsandır, Xilqətdir.

Xilqətin yaradılışından məqsəd-məhəbbətdir. (eşqdir!)

Ona görə də əsl eşq Allahı sevməklə bağlı eşqdir. XIX əsrdə yaşamış Şamaxılı şair Ələkbər Qafil də elə bundan danışır: "Bəxşişi-mövladır bu!

*Verib canana can, qafil, gər indi sən də bir ad et,*
*Ki, əhli-eşq namından səva aləmdə nam olmaz!"*
*"İçmişəm bir dolu, olmuşam ayıq..." Xətayi deyir bunu.*
*Adi şərab içənlər çox keçmədən yuxulayırlar.*

Can şərabı içənlər həmişə ayıq olurlar, həmişəlik ayılırlar.

Kimin duası çin olar? O kəsin ki, Allahdan allahdan başqa heç nə istəməz.

*Ələst aləmindən şərab içənlər*
*Dünya şərabından məst olar məgər?*
*Onun eşqi ilə məst olan insan,*
*Uzaqdır dünyada bəngdən, şərabdan".*

(M.Əvhədi)

* * *

Eşq bir imtahandır. Ələğa Vahid bu məqamı daha doğru-dürüst mənalandırmışdır:

*...Məcnun bitirməmişdir hələ eşq məktəbin...*
*Çox azdı elmi, təcrübəsi imtahan üçün.*

Bu fikri bütövlükdə bütün insanlara aid etmək istəsək, onda belə deyə bilərik:

*İnsan bitirməmişdir hələ Eşq məktəbin...*
*Eşq Səməndər quşu kimidir.*

Bircə "yumurta" qoyur. Yanır, kül olur. Külündən yeni Səməndər törəyir.

2) Cəhənnəm qorxusuyla bağlı.3) Allah sevgisiylə bağlı. Bacarın, həmişə Allah eşqinə dua edin!

Bunlardan yaxşı xəbəri olduğu üçün Nizami deyirmiş: "İlahi, Səndən başqa nə varsa yaddan çıxsa yaxşıdır".

Osmanlı dövlətinin qurucusu Osman Qaziyə qaynatası və mürşidi Şeyx Ədəbalının öyüdlərindən biri beləymiş:

"Allah buyruğundan başqa iş görməyəsən!"

İmam Hüseynin üzüyünün qaşında isə belə yazılıbmış: "Mənə Allah kifayətdir!"

Məşhur islam alimi, mücahidi İmam Qəzali illər sonrası öz səhvini bu cür etiraf etmişdir: "Mən insanlara bilik vermək istəyimin niyyətini xatırladım və anladım ki, bunu Allah yolunda yox, özümə şöhrət, ad-san qazanmaqdan ötrü edirəmmiş. Onda anladım ki, uçurumun kənarındayam. Əgər düşdüyüm bu vəziyyətimi dəyişə bilməsəm, yerim cəhənnəmdi..."

Bu reallıq, bu həqiqət Allah eşqiylə bağlı ilahilərdən birində öz təsdiqini belə tapıb:

*Allah deyən insan olur,*
*Hər müşkülü asan olur!*

Məşhur fransız maarifpərvər yazıçısı Volterə elə gəlirdi ki, "Allah olmasaydı da, insanlar onu uydurmağa məcbur olacaqdılar."

Qəribədir, uydurmanı həqiqət kimi qəbul edənlər bir-birini aldada-aldada niyə həqiqəti uydurma sanmağa cəhd etməyidilər ki?!

Hətta bir az da yollarını azıb "irəli" gedənlər Nitsşenin diliylə Allahı öldürməyə çalışacaq və "Allah öldü" deyəcəkdilər...

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, "Zərdüşt belə dedi" əsərində guya Nitsşe "Allah öldü" demişdir. Bu, əslində

*... İxlas ilə canımı canana yetirdim,*
*Düşmənləri bu həsrət ilə cana yetirdim.*

Tarix göstərir ki, ən böyük əhli olanlar və səadətə çatanlar Allahına və peyğəmbərinə itaət edənlər olmuşdur. "Hər kəs Allaha və peyğəmbərinə itaət etsə böyük bir səadətə nail olur" (Qurani-Kərimdən)

Ən böyük sənətkarların ən böyük fikirləri ilahi eşq haqqındadır:

*Eşqdir məhvəri uca göylərin,*
*Eşqsiz ey dünya, nədir dəyərin!*

(Nizami)

*...Eşq feyzilə yetib mətləbə, xoşbəxt olduq.*
*...Eşq imiş hər nə varsa aləmdə.*
*...Eşq dərdinə tutulandan dünyadan qurtuldum.*
*...Ey Füzuli, eşqdə sabit qədəmsən,*
*heç zaman dönmədim yoldan.*
*...Eşq qapısını Mövlana açınca mənə dəydi.*

(Ə.Yəcəvi)

*...Dörd kitabın mənasın*
*Oxudum, hasil etdim,*
*Eşqə gəlincə gördüm*
*Ən uzun heca imiş.*

(Y.İmrə)

*...Mən eşqin səhrası... qəlbin*
*qibləsi yoluna üz qoydum.*

(Xaqani)

*...Eşqin darvazası elə qurulmuş,*
*Girdinmi, qayıdıb çıxmaq çətindir.*

(Aşıq Alı)

Misal gətirilən bütün şeirlərdə söhbət ilahi eşqdən gedir. Füzuli düz deyir: Xətadır qeyri-eşq!

*İmtahan eylərlər könül şəhrini,*
*Eşqi-haqdan başqa talanıb gedər.*

(Misgin Abdal)

***(Davamı var)***